# "Cəmiyyət" məzmun xətti üzrə turizm və rekreasiya üzrə biliklərin təhlili

**Məsumə Rafiq qızı Qurbanova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** m.qurbanova96@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. O.K. Alxasov,
p.ü.f.d., dos. D.M. Ələsgərov

**Açar sözlər:** coğrafiya dərsliklərinin problemi, turizm və rekreasiya üzrə biliklər, coğrafi təlim

**Ключевые слова:** проблемы учебников по географии, знание туризма и отдыха, географическое учение

**Key words:** problems of textbooks on geography, knowledge of tourism and recreation, geographical teaching

Ölkəmizdə günü-gündən inkişaf edən turizm və rekreasiya sahəsi hər kəsin diqqət mərkəzindədir. İnkişaf etməkdə olan turizm və rekreasiya ehtiyatları ölkənin iqtisadi həyatına öz müsbət təsirini göstərməkdədir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı olaraq bu sahənin inkişafı sevindirici haldır. Lakin, bu sahənin inkişafı üçün ixtisaslı kadrlarla yanaşı, maarifləndirici işlər də görmək lazımdır. Cəmiyyətimizin maariflənməsi məhz məktəbdən başlayır. Turizm və rekreasiya üzrə biliklərin öyrədilməsində coğrafiya fənninin müstəsna əhəmiyyəti var. Bu biliklər məhz coğrafiya dərslərində öyrənilir. Odur ki, dərsliklərimizin təhlili zamanı bu biliklər sisteminin vəziyyətini araşdırmağa və gələcəkdə daha da təkmilləşdirməyə çalışmışıq.

8-ci sinif coğrafiya dərsliyinin "Dünya ölkələrinin təsnifatı" bölməsinin ölkələrin inkişaf səviyyəsinə görə təsnifatı haqqında biliklər verilir. Mövzunun əvvəlində şagirdlərə "Hansı tədbirlər ölkələrin iqtisadi və sosial inkişafına imkan verir?" sualı onları düşünməyə vadar edir. Şagirdlərin bu suala cavabları müxtəlif ola bilər.

Bununla yanaşı onlar turizm sahəsinin ölkənin iqtisadi inkişafına necə təsir etdiyini söyləyə bilərlər. Xüsusilə də son illərdə ölkəmizdə inkişaf edən turizm və rekreasiya sahəsi diqqəti öz üzərinə cəlb edir. Mövzuda ÜDM, ÜMM, ölkələrin inkişaf səviyyəsinə görə qruplaşdırılması və bu təsnifat zamanı nəzərə alınan amillər öz əksini tapmışdır. Aqrar ölkələr qrupunun adı çəkilsə də, buna misal olaraq ölkələr göstərilməmişdir. "İnkişaf etmiş ölkələr" mövzusunda İEÖ-in bir neçə yarımqrupu verilmişdir. Burada "Böyük yeddilik", Qərbi Avropada olan kiçik İEÖ, "Köçürmə kapitalizm" ölkələri, Qərbi Avropanın orta inkişaf səviyyəsində olan ölkələri və bu qrupa daxil olan yeni ölkələr verilmişdir [4, s. 135].

Adları çəkilən ölkələr haqqında ətraflı məlumat verilmiyib. Sadəcə ikinci yarımqrupa aid olan ölkələrin əsas gəlirli sahələrindən olan turizmin adı çəkilir. Dünyanın üç iri inkişaf mərkəzlərinin sadəcə adları çəkilmişdir. "İnkişaf etməkdə olan ölkələr" mövzusunda bir sıra ölkələr haqqında məlumat verilsə də, onların turizm və rekreasiya əhəmiyyəti qeyd olunmayıb [4, s. 137]. Yaxşı olardı ki, burada turizmin inkişafına görə seçilən, rekreasiya potensialı ilə zəngin olan ölkələr haqqında məlumat verilsin.

"Əhalinin sayı" mövzusunun əvvəlində şagirdlərə "Azərbaycanda əhalinin sayının dəyişməsinə hansı proseslər təsir edir?" sualı verilir. [4 səh.146] Aydındır ki, artıq şagirdlərimiz

tam məlumatsız olmadıqları üçün bu suala dolğun şəkildə cavab verə bilərlər. Şagirdlərə ölkəyə gələnlərin, gedənlərin, doğum və ölüm hallarının buna təsiri izah edir. Digər mövzuda artıq şagirdlər ölkəyə gələnlərin immiqrantlar, ölkədən gedənlərin isə emiqrant adlandırıldığını bilir. Bununla yanaşı şagirdlər miqrasiya prosesinin nə olduğunu, hansı səbəblərdən olmasını aydınlaşdırır. Ətraf mühiti çirkləndirən mənbələr mövzusunda ətraf mühitə insanın təsərrüfat fəaliyyətinin, məişət tullantılarının və s. təsirindən bəhs olunur. Burada meşə yanğınlarının ətraf mühiti necə çirkləndirdiyi təsvir olunub. Lakin dərslikdə meşə yanğınlarının hansı səbəblərdən yaranması qeyd olunmayıb. Müəllim bu məsələ ilə bağlı geniş diskussiya təşkil edə bilər [4].

Şagirdlərə meşə yanğınlarının hansı səbəblərdən baş verdiyi sualı verilsəydi onların cavabı necə olardı? Meşə yanğınlarının insanlar tərəfindən təhlükəsizlik qaydalarına əməl etmədikləri üçün və təbii şəkildə baş verdiyi cavabını aldığımız halda yeni bir sual daha ortaya çıxır. Bəs insanları, turistləri necə maarifləndirə bilərik? Bu kimi suallar mövzunun sonunda tapşırıq bölməsində şagirdlər üçün verilsəydi daha yaxşı olardı. “Təsərrüfat sahələri və ekoloji mühit” mövzusunun təhlil edək bölməsində şagirdlərə“ Azərbaycanda ətraf mühiti çirkləndirən əsas mənbələrə hansı istehsal sahələrini aid etmək olar?” sualı verilib [4, s. 168].

Mənbələrdən biri olan antropogen fəaliyyət mövzunun daxilində verilib. Burada müxtəlif maddələrin, birləşmələrin və tullantıların atılması nəticəsində ətraf mühitin çirklənməsinə səbəb olması izah olunur. Mövzunun sonunda tapşırıq bölməsində şagirdlərə ətraf mühiti mühafizə etmək üçün hansı tədbirlərdən istifadə etməliyik və antropogen fəaliyyətin hansı növünün ətrafı daha çox çirkləndirdiyini araşdırın və s. kimi verilə bilər.

Cəmiyyət məzmun xətti üzrə digər mövzu “Ətraf mühiti mühafizə yolları”dır. Mövzuda müxtəlif mübarizə yollarından bəhs olunur [4, s. 171] Mövzudan aydın olur ki, çirklənmənin çox hissəsi insanlar tərəfindən həyata keçirilir və bununla mübarizə yollarını da elə insanlar axtarır. Mövzunun sonunda ev tapşırığı olaraq “İnsanları ətraf mühiti qorumağa, çirkləndirməməyə necə sövq edə bilərsiz?” verilə bilər. Bundan əlavə şagirdlər üçün layihə verilə bilər. Ölkəmizdə olan turistlər və yerli əhali üçün ətraf mühitin mühafizəsi məqsədilə hansı işləri həyata keçirə bilərsiz və s. verilə bilər.

Digər mövzuda ekoloji cəhətdən sağlam olan ərazilərdə istirahətin təşkili məqsədilə turizm-rekreasiya təsərrüfatının yaradılması qeyd olunur. Rekreasiya ehtiyatları təbii rekreasiya-turizm və mədəni-tarixi rekreasiya ehtiyatlarına bölünür. Mövzuda əsasən dünya ölkələrinin adları, görməli yerləri qeyd olunub. Mövzunun sonunda suallar və tapşırıq bölməsində turizm və rekreasiya məsələlərinə toxunulub. Ev tapşırığı bölməsində isə şagirdlərə turizm mərkəzlərinin xəritədə adlarının qeyd olunması tapşırılır. Dərsliyin cəmiyyət məzmun xətti üzrə sonuncu mövzusunda Azərbaycanın ekoloji vəziyyəti və turizm-rekreasiya ehtiyatları öz əksini tapıb [4, s. 178].

Mövzunun əvvəlində şagirdlərə düşündürücü suallar verilib. Azərbaycanın təbii-rekreasiya ehtiyatları haqqında məlumat verilib. Bununla yanaşı turizm təsərrüfatının yaradılma perspektivinin olduğu ərazilər, mədəni-tarixi rekreasiya ehtiyatları qeyd olunub. Ölkəmizdə mövcud olan çoxlu mineral bulaqların adı çəkilir və bunların müalicə mənbəyi olduğu qeyd olunur.

9-cu sinif “Ekoloji siyasət” mövzusunda təbiətin çirklənməsi, ekoloji problemlərin yaranması və qlobal ekoloji böhrandan bəhs olunur [6, s. 119]. İnsanların bir sıra təsərrüfat işləri zamanı antropogen təsirlərin nəticəsində yaranan ekoloji gərginliklərin aradan qaldırılması üçün şagirdlərə layihə tapşırıla bilər. Layihənin başlıca məqsədi yerli əhali ilə yanaşı, turistlərin yaşıllığa, təbiətə olan münasibətində dəyişiklik yaratmaqdır. “Ekoloji monitorinq” möv-

zusunda monitorinqlərin təşkil olunması, yaranmış problemlər üçün tədbirlər planının hazırlanmasından bəhs olunur [6, s. 123].

Bitkilərin qiymətləndirilməsi meyarına əsasən bitki növlərinin və meşələrin məhv olunması nəzərə alınır. Parklarda, meşələrdə və digər rekreasiya əhəmiyyətli ərazilərdə təbiətin insanlar tərəfindən zorakılığa məruz qalmasının şahidi oluruq. Müəllim şagirdlərə bu mövzuda müxtəlif istiqamətdə tapşırıqlar hazırlaya bilər. “Təbiətə ekskursiya” mövzusunda şagirdlərə ekskursiya haqqında təlimatlar verilib [6, s. 125] Mövzunun sonunda təqdimat hazırlamalı olan şagirdlər rekreasiya ərazilərinin necə qorunduğu haqqında məlumat verəcəklər. Təbiətlə insan arasında şüurlu əlaqəni təsvir edəcəklər.

“Tarixi-coğrafi regionların müasir vəziyyəti” mövzusunda müxtəlif regionların inkişaf xüsusiyyətləri qeyd olunub. Cənubi Avropa və Şimali Afrika ölkələrində turizm sahəsinin inkişafı qeyd olunub. Ölkələrin turizmdən xeyli gəlir əldə etdikləri qeyd olunub [6, s. 143].

“Azərbaycanda demoqrafik vəziyyət” mövzusunda əhalinin artımı diaqramlarla və xəritədə əks olunub. Bir sıra demoqrafik göstəricilər statistikası qeyd olunub. Mövzunun sonunda Azərbaycanda əhalinin sayına miqrasiya prosesinin təsirinin olduğu deyilir. Burada ölkəyə gələnlərin və ölkədən həmişəlik gedənlərin sayı təsir edir. Statistik göstəricilərdə ölkəyə daimi yaşamaq üçün gələnləri sayı 2181 nəfər təşkil edir. Müəllim şagirdlərə “Ölkəyə gələn turistlərin burada daimi yaşamaq istəmələri hansı amillərin təsirindən ola bilər?” sualını verə bilər. “Təsərrüfatın sahə quruluşu” mövzusunda iqtisadiyyatın dörd sahə quruluşu və bu sahələr haqqında ətraflı məlumat verilib [6, s. 173].

İnkişaf etmiş ölkələrdə üçüncü sektorun-nəqliyyat, ticarət, turzim, xidmət sahələri əsas yer tutur. Bu ölkələrdə əsasən xidmət sahələri haqqında məlumat verilib. Ölkələrin turzimdən əldə etdiyi gəlir qeyd olunmayıb. Baxmayaraq ki, bəzilərinin iqtisadi göstəricilərində irəliləyişlərin səbəbi məhz turizm sahəsidir. “Azərbaycanın iqtisadi inkişafı” mövzusunda ölkənin iqtisadi inkişafı mərhələlər üzrə təsvir olunub. Şagirdlərə “Sizcə, gəlirlərin kəskin artımına hansı amillər təsir edə bilər?” sualı verilib [6, s. 196].

Bunun da müxtəlif cavabları olacağına əminik. Üstünlüyü neft sektoru təşkil etsə də, qeyri-neft sektoru da böyük əhəmiyyət kəsb edir. Qeyri-neft sektorundan xüsusilə turizm sahəsinin son illər inkişafı, büdcəyə gələn gəlirin sayı artmışdır. Mövzunun sonunda ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqətin göstərilməsi qeyd olunub. İqtisadi islahatların və dövlət proqramlarının təşkil olunması, bununla yanaşı regionların sosial-iqtisadi inkişafı üçün dövlət proqramının təsis olunduğu qeyd olunur. Müəllim şagirdlərə “Hansı regionlarımızın turizm potensialı daha yüksəkdir?” tədqiqat sualını verə bilər.

“Tüstüsüz sənaye”-turizm mövzusunda turizm sahəsinin xüsusiyyətlərindən, inkişaf perspektivlərindən və s. bəhs olunur [6, s. 199]. Turizm sahəsinin yüksək inkişaf etməkdə olan təsərrüfat sahəsi olması, inkişaf sürətinə görə yalnız neft və neft məhsullarının ticarəti və avtomobil satışından sonra üçüncü yerdə olması qeyd olunub. Bununla yanaşı turizm sahəsindən ölkələrin yüksək gəlir əldə etməsi, çoxlu sayda iş yerlərinin mövcud olması və bu sahədə çalışanların sayının 300 milyondan artıq olması mövzuda öz əksini tapıb. Müxtəlif şirkətlər, turizmin növləri, Azərbaycanda turizmin inkişafına da yer verilib. Mövzu daxilində turizm və rekreasiya bilikləri haqqında kifayət qədər məlumat verilib. Bu sahənin inkişaf etdirilməsi üçün məhz bu biliklərin sistemli şəkildə çatdırılması daha vacibdir. Turizm və rekreasiya sahəsinin inkişafına baza rolunu oynayan məktəb coğrafiyasında buna xüsusi diqqət göstərilməlidir.

**Məqalənin aktuallığı.** İnkişaf etməkdə olan turizm və rekreasiya ehtiyatları ölkənin iqtisadi həyatına öz müsbət təsirini göstərdiyini nəzərə alsaq, məqaləni aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə "Coğrafiya" dərsliklərində ayrı-ayrı siniflər üzrə turizm və rekreasiya biliklərinin təhlili aparılmış və müəllimlərə bəzi metodik tövsiyələr verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Z. Eminov, Q.Səmədov, A.Əliyeva, Coğrafiya: Ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün dərslik. Bakı: Çaşıöğlu, 2018, 192 s.

2. Z.Eminov, Q.Səmədov, A.Əliyeva. Coğrafiya-8: Müəllim üçün metodik vəsait. Bakı: Xəzər Etiket, 2015,176 s.

3. E.Əlizadə, N.Seyfullayeva, İ.Aktoprak, Y.Şabanova. Coğrafiya: Ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2017 214 s.

4. E.Əlizadə, N.Seyfullayeva, Y.Şabanova, İ.Aktoprak. Coğrafiya-9: Müəllim üçün metodik vəsait. Bakı: Şərq-Qərb, 2016, 204 s.

**М.Р. Курбанова**

## Анализ знаний в туризме и рекреаций по направлению "Общество"

### Резюме

Обучеие знаниям по туризму и рекреации занимают важное место в процессе преподавания географии. Особенно изучаем обучение систем знаний по туризму и рекреации в направлении "Общество". Для изучения учебных пособий и методических пренадлежностей вам предоставляются ряд методических показателей.

**M.R. Gurbanova**

## Analysing the knowledge of tourism and recreation with the main idea "Society"

### Summary

Teaching the knowledge of tourism and recreation has an important role in teaching the subject Geography. Especially we are researching teaching knowledges that has the main idea "Society". Some commands are taken while analysing the textbooks and methodical resources.

**Redaksiyaya daxil olub:** 30.10.2019